

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 59 (22.970)

3 aprel 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulanıb, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edilib.

Belarusun Baş nazirinin müavini Gəncə traktor zavodunda 10 margin traktorun yığılmasının əlamətdar bir hadisə olduğunu vurğulayaraq, Azərbaycan ilə Belarusun bu birgə məhsulunun üçüncü ölkələrə ixrac edilməsi imkanlarının araşdırılmasının önəmini qeyd edib.

Dövlətimizin başçısı, öz növbəsində, bunu əlamətdar hadisə kimi qiymətləndirərək, regionlara səfəri zamanı fermerlərin Azərbaycan-Belarus birgə məhsulu olan traktorların keyfiyyətindən razılıq etdiklərini vurğulayıb və bu məhsulun ixracı üçün yaxşı imkanların olduğunu deyib.

## Ordubad dəmir yolu stansiyası kompleks quruculuq işlərindən sonra istifadəyə verilib





Aprelin 2-də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad dəmir yolu stansiyası kompleks quruculuq işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov açılış tədbirində iştirak etmişlər.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada aparılan quruculuq işləri dəmir yolu sistemini də əhatə etmiş, sərnişin vağzalı binaları, inzibati və texniki binalar yenidən qurulmuş, müasir dəmir yolu infrastrukturu, hərtərəfli iş və xidmət şəraiti yaradılmışdır. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi dəmiryol nəqliyyatından istifadə edənlərin sayını artırmışdır. Dəmir yolu təsərrüfatında aparılan quruculuq işlərinin davamı olaraq Ordubad sərnişin vağzalı və yol sahəsi üçün yeni inzibati binalar, eləcə də yol fəhlələri üçün yeni bina tikilmiş, stansiyanın İdarəetmə Mərkəzi, yük anbarı və yarımstansiya binası əsaslı şəkildə yenidən qurulmuşdur. Mahir Əliyev göstərilən qayğıya görə muxtar respublikanın bütün dəmiryolçuları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov çıxış edərək demişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf dövrünü yaşayır. Ümummilli liderin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada dəmir yolu infrastrukturu qorunub saxlanılır və inkişaf etdirilir. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bundan sonra da Naxçıvan Muxtar Respublikasında dəmir yolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində tədbirlər görəcəkdir. Hazırda İran üzərindən Naxçıvan Muxtar Respublikası ilə Bakı şəhəri arasında dəmir yolu xəttinin açılması istiqamətində işlər aparılır. Bu da muxtar respublikanın iqtisadi inkişafına və dəmir




yolu nəqliyyatının daha da müasirləşdirilməsinə töhfəsini verəcəkdir. Cavid Qurbanov Ordubad dəmir yolu stansiyasının və yeni sərnişin vaqonlarının istifadəyə verilməsi münasibətilə kollektivə təbriklərini çatdırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad dəmir yolu stansiyasının və yeni sərnişin vaqonlarının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə dəmiryolçuları və istifadəçiləri təbrik edərək demişdir: Naxçıvan Muxtar Respublikası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayan dövrdən etibarən blokada şəraitində yaşayır. Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etməsi Naxçıvanı bir çox bəlalardan xilas etdi. Eyni zamanda ulu öndər tərəfindən həyata keçirilən tədbirlər Naxçıvan dəmir yollarının da dağılmasının qarşısını aldı. Ümummilli liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə digər sahələrlə yanaşı, dəmir yolunun inkişafına da diqqət artırıldı.

Ali Məclisin Sədri demişdir: Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf etdirilir. Bu inkişaf dəmir yolu nəqliyyatını da əhatə etmişdir. Hər bir müstəqil ölkədə ən vacib sahələrdən biri də dəmir yolu nəqliyyatıdır. Çünki dəmir yolu nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir. Blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir. "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. Hazırda muxtar respublikada daxili yük və sərnişin daşınmalarının həyata keçirilməsində dəmir yolunun imkanlarından geniş istifadə olunur. Bu da sakinlər və iş adamları tərəfindən məmnunluqla qarşılanır. Bütün bunlar isə həm proqramın uğurlu icrasının, həm də Naxçıvan dəmiryolçularının fədakar əməyinin nəticəsidir.

Ali Məclisin Sədri dəmiryolçulara təşəkkürünü bildirərək demişdir: "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına hərtərəfli diqqət göstərir. Muxtar respublikada dəmir yolu infrastrukturu müasirləşdirilir, yeni dəmir yolu vağzalları tikilir, vaqon təmiri deposu yenidən qurulur və digər işlər həyata keçirilir. Bu gün yeni sərnişin vaqonlarının istifadəyə verilməsi də göstərilən qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri Naxçıvanda dəmir yolunun inkişafına göstərdiyi köməkliyə görə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə təşəkkürünü bildirmiş, yeni vaqonlardan səmərəli istifadə olunacağına və sərnişinlərə nümunəvi xidmət göstəriləcəyinə əminliyini ifadə etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov açılışı bildirən lenti kəsmişlər.

Məlumat verilmişdir ki, quruculuq işləri aparılarkən Ordubad sərnişin vağzalı üçün yeni inzibati bina, yol sahəsi üçün inzibati və yardımçı binalar, həmçinin yol fəhlələri üçün bina tikilmiş, stansiyanın İdarəetmə Mərkəzi və yük anbarı yenidən qurulmuşdur. Ordubad sərnişin vağzalının inzibati binasında 9 iş otağı, gözləmə zalı, zirzəmi qatında isə bufet və texniki otaqlar yerləşir. Stansiyanın İdarəetmə Mərkəzinin binasında 7 iş otağı, 5 avadanlıq otağı, anbar və qazanxana mövcuddur. İdarənin həyətində qapalı və çardaq hissədən ibarət yük anbarı yerləşir. Stansiyanın 2-ci qəbul-göndərmə yolu, bu yol ilə baş yol arasında olan 290 metrlik, eləcə də stansiya ərazisindəki 425 metrlik sərnişin platformaları da yenidən qurulmuşdur. Ordubad Yol Sahəsinin inzibati binasında 11 iş otağı və bufet, yeni tikilmiş yardımçı binasında sürücü və mexaniklər, defektoskop briqadası üçün otaqlar, qaynaq və dəmirçi sexləri, 3 qaraj və anbar yerləşir. Yol fəhlələri üçün inşa edilmiş binada isə iş otaqları və anbar vardır.

Binaların hər biri istilik sistemi ilə təmin olunmuş, iş otaqlarında kompüter dəstləri qoyulmuş, stansiyanın bütün ərazisində müasir işıqlandırma sistemi qurulmuşdur. Sel sularının qarşısını almaq üçün ərazidə suötürücü kanal inşa edilmiş, yaşıllıq zolağı və meyvə bağı salınmışdır.

Ardı 2-ci səhifədə

# Muxtar respublikanın dəmir yolu təsərrüfatına 8 yeni sərnişin vaqonu təqdim edilmişdir





Muxtar respublikada dəmir yolu nəqliyyatının müasir tələblər səviyyəsində qurulması və sərnişinlərə nümunəvi xidmət göstərilməsi sahəsində ardıcıl tədbirlər görülür.

Aprelin 2-də muxtar respublikanın dəmir yolu təsərrüfatına 8 yeni sərnişin vaqonu təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov yeni sərnişin vaqonlarına baxmışlar.

Bildirilmişdir ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən alınıb gətirilmiş vaqonların hər biri 60 yerlikdir. Vaqonlarda kombinasiya edilmiş istilik və soyutma sistemləri quraşdırılmış, sərnişinlərə "Naxtel 4G" mobil operatoru vasitəsilə pulsuz internetdən, eləcə də televizordan istifadə imkanı yaradılmışdır. Həmçinin hər vaqonda 2 nəzarət kamerası quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# "Naxçıvanbank" ASC uğurlu fəaliyyətinə görə mükafatlandırılıb





***Muxtar respublikamızda bütün sahələrlə yanaşı, bank-kredit fəaliyyəti istiqamətində də yeni-yeni uğurlar əldə edilir. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının təşəbbüsü və Azərbaycan Banklar Assosiasiyasının təşkilati dəstəyi ilə 2017-ci il üzrə nağdsız ödənişlərin inkişafı istiqamətində elan edilmiş müsabiqədə "Naxçıvanbank" ASC iki nominasiya üzrə qalib olub. "Naxçıvanbank" ASC "Təmassız POS-terminal infrastrukturu üzrə lider bank" nominasiyasında I yer, "Təmassız ödəniş kartları üzrə lider bank" nominasiyası üzrə isə III yerə layiq görülüb.***

Aprelin 2-də "Naxçıvanbank" ASC-də bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elvin Axundov bildirib ki, muxtar respublikamızın davamlı iqtisadi inkişafında bank-kredit təşkilatlarının üzərinə mühüm vəzifələr düşür. Ayrı-ayrı sahələrə kreditlər verməklə real sektorun dəstəklənməsi, müxtəlif istehsal və xidmət sahələrinin yaradılması, əhali məşğulluğunun təmin edilməsində banklarımız mühüm funksiyalar yerinə yetirirlər. Bank xidmətlərinin vətəndaşlar üçün daha da əlçatan edilməsi məqsədilə elektron bank infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən işlər isə qısa zamanda öz bəhrəsini verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında elektron ödəniş xidmətlərinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib. Nəticədə, muxtar respublikada POS-terminalların sayı 1265-ə, ödəniş kartlarının sayı 268 min 955-ə, bankomatların sayı 105-ə, bank hesablarının sayı isə 43 min 684-ə çatdırılıb.

Qeyd olunub ki, muxtar respublikada nağdsız ödənişlərin genişləndirilməsində "Naxçıvanbank" ASC də böyük rol oynayıb. Bank öz fəaliyyəti dövründə əhaliyə müasir bank xidmətlərinin göstərilməsi və yeni bankçılıq texnologiyalarının mənimsənilməsində mühüm nailiyyətlər qazanıb.

Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Tapdıq Əliyev çıxışında vurğulayıb ki, göstərdiyi şəffaf və mütərəqqi bank xidmətləri ilə muxtar respublika sakinlərində bank sektoruna olan inamın daha da artırılmasında mühüm rol oynayan "Naxçıvanbank" ASC-nin ötən ilin yekunlarına görə iki nominasiya üzrə qalib adı alması təsadüfi deyil. Belə ki, "Naxçıvanbank" ASC təklif etdiyi bank xidmətlərinin keyfiyyətinin daim yüksəldilməsi, əhalinin nağdsız ödənişlərə olan marağının artırılması üçün maarifləndirici tədbirlər həyata keçirilməsi və elektron bankçılıq sahəsində pilot layihələrin reallaşdırılması istiqamətində fəallıq göstərib.

Tədbirdə "Naxçıvanbank" ASC-nin idarə heyətinin sədri Azər Məmmədov qeyd edib ki, əhaliyə keyfiyyətli elektron bank xidmətlərinin göstərilməsi əsas prioritetlərdən biridir. Bu istiqamətdə həyata keçirilən işlər arasında nağdsız ödənişlərin həcminin daha da genişləndirilməsi və mütərəqqi dünya təcrübəsinin tətbiq olunması xüsusi yer tutur. O qeyd edib ki, hazırda "Naxçıvanbank" ASC əhalinin daha rahat və sərfəli şəkildə bank xidmətlərindən yararlanması üçün baş ofis və 5 filialında 421-i hüquqi, 33 min 704-ü fiziki şəxs olmaqla, ümumilikdə, 34 min 125 müştəriyə xidmət göstərir. Nağdsız ödənişlərin həcminin artırılması və mövcud infrastrukturun təkmilləşdirilməsi məqsədilə bir çox obyektlərdə POS-terminallar quraşdırılıb, onlardan səmərəli istifadə təmin edilib. Belə ki, bank tərəfindən əhalinin plastik kartlardan istifadə edərək nağdsız ödənişləri həyata keçirməsi məqsədilə quraşdırılmış POS-terminalların sayı 802-yə çatdırılıb. Bununla yanaşı, 2018-ci ildə məsafəli bank xidmətlərinin genişləndirilməsi üçün 10 ədəd "Ödəmə məntəqəsi" quraşdırılaraq əhalinin istifadəsinə verilib. Cari il ərzində daha 40 ədəd "Ödəmə məntəqəsi" muxtar respublikanın rayon və kənd mərkəzlərində quraşdırılacaqdır.

Diqqətə çatdırılıb ki, 1 aprel 2018-ci il tarixə "Naxçıvanbank" ASC-yə məxsus bankomatların sayı 34 ədəd olub və cari ilin sonuna Culfa və Ordubad rayonlarında əlavə bankomatların quraşdırılması nəzərdə tutulub.

"Naxçıvanbank" ASC 2012-ci ildən "MasterCard", 2015-ci ildən isə "VİSA" beynəlxalq ödəniş sistemlərinin üzvüdür. Hazırda bank 23 min 147 ədəd kart emissiya edib. Həmçinin müştərilərin POS-terminal əməliyyatları zamanı vaxt itkisinin qarşısını almaq üçün təmassız ödəmə POS-terminalları və bu xidməti dəstəkləyən ödəniş kartları müştərilərin istifadəsinə verilib. Bundan əlavə, kart sahibləri bankın "SMS banking", "İnternet banking" və "Mobile banking" xidmətlərindən istifadə edirlər.

"Naxçıvanbank" ASC-yə məxsus POS-terminallar və digər ödəniş sistemləri vasitəsilə 2017-ci il ərzində ödəniş kartları ilə 4 milyon 622 min manat nağdsız əməliyyatlar aparılıb ki, bundan 2 milyon 39 min manatı POS-terminal, 2 milyon 583 min manatı elektron ticarət əməliyyatlarıdır.

Sonra nominasiyalar üzrə "Naxçıvanbank" ASC-nin layiq görüldüyü mükafatlar təqdim olunub.

**Əli CABBAROV**

# Miqrasiya Xidmətində vətəndaşlığa qəbulla bağlı tədbir



Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 mart tarixli Sərəncamı ilə vətəndaşlığa qəbul edilən Qalina Mamedovanın andiçməsinə həsr olunmuş tədbirdə Dövlət Miqrasiya Xidmətinin rəisi, 3-cü dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 mart tarixli Fərmanına müvafiq olaraq, Dövlət Miqrasiya Xidmətinin vətəndaşlıq məsələlərində iştirakı təmin edilib. Həmçinin dövlət başçısının 2015-ci il 11 fevral tarixli Fərmanına əsasən şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətini müəyyənləşdirmək də bilavasitə Dövlət Miqrasiya Xidmətinin vəzifəsi kimi müəyyən olunub.

Xidmət rəisi son illər Azərbaycanda və muxtar respublikamızda həyata keçirilən islahatlar nəticəsində əldə edilən uğurlardan, beynəlxalq birliyin bərabərhüquqlu subyekti kimi sabitliyin yüksək səviyyədə təmin edildiyi, multikultural dəyərlərin hakim olduğu, tolerantlıq nümunəsi sayılan respublikamızın dünyanın siyasi, iqtisadi və mədəni mühitinə verdiyi töhfələrdən danışıb. Azərbaycanda yaşamaq, işləmək, təhsil almaq, xüsusilə respublikamızın vətəndaşı olmaq istəyənlərin sayının ildən-ilə artdığı qeyd olunub.

Sonra Azərbaycan Respublikası vətəndaşlığına qəbul olunan Qalina Mamedova Dövlət bayrağı önündə Azərbaycan Respublikasının Konstitusiyasına əl basaraq dövlət dilində Azərbaycan Respublikasına sadiq olacağı barədə and içib. Vətəndaşlığa qəbul olunan Qalina Mamedovaya bununla bağlı arayış təqdim olunub.

Qalina Mamedova Azərbaycan Respublikasının vətəndaşı adını şərəflə daşıyacağını və bu böyük etimada görə ölkə rəhbərinə dərin minnətdarlığını bildirib.

Andiçmə mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Azərbaycan nümayəndə heyəti Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 34-cü sessiyasında iştirak edib

*Azərbaycan nümayəndə heyəti 26-29 mart tarixlərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 34-cü sessiyasında iştirak etmişdir.*

"Yerli və regional səviyyədə hüquqlara əsaslanan idarəetmə" devizi altında keçən sessiyanın gündəliyində qitənin bir sıra üzv-dövlətlərində yerli və regional seçkilərin müşahidəsi, bəzi dövlətlərin öhdəliklərinə əməl edilməsinə dair monitorinq missiyalarının hesabatları, regional referendumlar, demokratiyanın aləti kimi: gözləntilər və risklər, regional identiklik və milli dövlətlərin bütövlüyü, yerli və regional səviyyədə insan hüquqlarının müdafiəsi və bir sıra digər məsələlər müzakirə olunmuşdur. Sessiyanın işində Danimarkanın həmsədrliyi ilə bağlı hökumət üzvünün iştirakı ilə müzakirələr aparılmış, eyni zamanda AŞPA-nın sədri Mikele Nikoletin çıxış etmişdir.

Azərbaycan nümayəndə heyəti ayrı-ayrı məsələlərə dair müzakirələrdə iştirak etmişdir. Plenar sessiyanın martın 28-də keçirilən toplantısında "Regional referendumlar, demokratiyanın aləti kimi: gözləntilər və risklər" mövzusunda təşkil olunan müzakirələrdə Avropa Şurasının Qanun üzərindən demokratiya (Venesiya) Komissiyası katibinin müavini, Fransanın Milli Elmi Araşdırmalar Mərkəzinin (CNRS) direktoru və bir sıra Avropa regionlarının rəhbərlərinin məruzələri dinlənilmiş, məruzələr ətrafında müzakirələr olmuşdur.

Avropa Şurası Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov müzakirələrdə çıxış edərək bildirmişdir ki, referendumlar birbaşa demokratiyanın vacib alətidir. Lakin bu alətin geniş istifadəsi yüksək siyasi mədəniyyətin olmasını tələb edir. Son zamanlar Avropada bu sahədə bir sıra populist qərarların və addımların şahidi oluruq, tez-tez bu cür yalançı referendumlar, sadəcə, separatçı təşəbbüslərə hüquqi don geyindirilməsi üçün təşkil olunur. Biz bu riskləri mütləq nəzərə almalıyıq. Səlahiyyətlərin sərhədləri və ümummilli maraqlarla uzlaşma, hüquqi çərçivədən kənara çıxmamağa dayanan yanaşma – vahid yanaşma qəbul olunmalıdır.

Sessiya zamanı nümayəndə heyəti digər məsələlər barədə aparılan müzakirələrdə də yaxından iştirak etmişdir.

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

***Hər bir xalq öz müstəqillik arzusunu, istiqbal duyğusunu həmişə ürəyində yaşadır və nə vaxtsa onun reallığa çevrilməsi üçün əlverişli məqam gözləyir. Azərbaycanda belə bir məqam 1918-ci ildə yarandı. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı illərdə mənfur, məkrli qonşumuz ermənilərin ərazi iddiaları ilə üz-üzə gələn naxçıvanlılar öz qəhrəmanlıq salnaməsində daha bir səhifə açdı. Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətlə əlaqədar olaraq, Naxçıvana lazım olan köməkliyi göstərə bilmirdi. Naxçıvan əhalisi, yerli ziyalılar erməni daşnaklarına qarşı inadla mübarizə apardı və mənfur düşmən öz çirkin niyyətini reallaşdıra bilmədi, qədim diyar ana Vətəninə birləşmək arzusunu gerçəkləşdirdi. Cümhuriyyətin yarandığı vaxtlarda Naxçıvanda vəziyyət necə idi? Bu və ya digər suallara cavab tapmaq üçün Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə müraciət etdik.***

*Azərbaycan Xalq Cümhuriyyəti – 100*

# Cümhuriyyət dövründə Naxçıvan



***– İsmayıl müəllim, bildiyimiz kimi, ölkə Prezidentinin sərəncamları ilə həm Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunacaq, həm də 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir. Tanınmış tarixçi-alim, elm xadimi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının əhəmiyyətini və dövlətçilik tarixindəki yerini hansı fikirlərlə ifadə edərdiniz?***

– 1918-1920-ci illərdə mövcud olan Cümhuriyyət Azərbaycan tarixində şərəfli yer tutur. Onun bütün istiqamətlərdəki fəaliyyəti Azərbaycan xalqının tarixi uğurudur.

Belə ki, 1918-ci ildə Azərbaycanda respublika quruluşu bərqərar oldu, dövlət hakimiyyətinin bütün qolları yaradıldı, dövlət Azərbaycan Xalq Cümhuriyyəti adlandırıldı. Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi".***

2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi də cümhuriyyətin xalqımızın tarixində oynadığı mühüm rolu ilə bağlıdır.

***– Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Naxçıvanda vəziyyət necə idi?***

– 1917-ci il fevral inqilabı, çarizmin devrilməsi ilə bir tərəfdən Naxçıvan diyarında qəza komissiyalarının və ictimai təşkilatların kənd icraiyyə komitələrinin nümunəsində müvəqqəti hökumət yaranmış, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları sovetləri, Culfa şəhərində, habelə Şahtaxtı dəmir yolu stansiyasında isə əsgər sovetləri təşkil edilmişdi.

Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə martın 9-da Cənubi Qafqazı idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Komitə elə həmin aydan başlayaraq bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan qəzalarında müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələri və komissarlıqlar yaratmağa başladı. 1917-ci ilin aprel ayının axırlarında isə Naxçıvan və Şərur qəzalarında Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları təyin edildi. Belə ki, komitənin 1917-ci il 26 aprel tarixli qərarı ilə Bürhan bəy Maqsudov Naxçıvan qəzası üzrə müvəkkil təyin edildi. 1917-ci ilin 1 sentyabrında onu Baxşəli ağa Şahtaxtinski əvəz etdi. Yalnız 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları – qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başladılar.

Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə uyğun olaraq "qarışıq milli komitələr" yaradıldı. Bu komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək edirdilər. Naxçıvanda yerli əhalinin böyük əksəriyyətinin azərbaycanlılar olması onların qarışıq milli komitələrdə çoxluq təşkil etməsində də özünü göstərdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkar tədbirlərə əl atır, milli düşmənçiliyi qızışdırırdılar. Naxçıvan Milli Komitəsində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynadı.

Naxçıvanda fəaliyyət göstərən sovetlərin işi ilə bağlı qeyd etmək lazımdır ki, onlar daha çox rus ordu hissələrinə arxalanırdılar. İlk vaxtlar yerli əhali sovetlərin fəaliyyətində, demək olar ki, iştirak etməmişdi. Göründüyü kimi, bu illərdə Naxçıvanda çoxhakimiyyətliliyin olması ictimai-siyasi vəziyyəti çətinləşdirmiş, hətta qarşıdurmalar yaratmışdı.

***– Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşmək arzusunu hansı səbəblər üzündən reallaşdıra bilmirdi?***

– Böyük dövlətlərin Azərbaycan maraqları, erməni daşnaklarını himayə etmələri, onlara siyasi, hərbi və iqtisadi kömək göstərmələri, Sovet Rusiyasının Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımaması, ona qarşı müxtəlif manevrləri, erməni amilindən istifadə etmələri, daşnakların azərbaycanlıların yaşadıqları Qərbi Azərbaycan, Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və digər yerlərdə qanlı qırğınlar, soyqırımlar törətmələri Azərbaycan hökumətini çətin hadisələrlə üz-üzə qoymuşdu. Xüsusilə Zəngəzurda Andranik Ozanyanın çoxsaylı silahlıları, erməni daşnaklarının Zəngəzura yiyələnmək uğrunda apardıqları döyüşlər Naxçıvana istənilən köməkliyin göstərilməsinə imkan vermirdi. Yollar bağlı olduğundan hərbi qüvvə ilə yardım edilməsi mümkün deyildi, bəzi hallarda çox az sayda hərbçi göndərilirdi. Belə bir dövrdə əvvəlcə Qarabağ general-qubernatorluğunun tərkibində Naxçıvan üzrə müşavir vəzifəsi yaradıldı. 1919-cu il 25 fevraldan isə Naxçıvan general-qubernatorluğu fəaliyyət göstərməyə başladı, Bəhram xan Naxçıvanski isə general-qubernator təyin edildi.

***– Naxçıvan daşnak hücumlarından hansı qüvvələrlə müdafiə olunurdu?***

– Həmin dövrdə Naxçıvandakı özünümüdafiə qüvvələri erməni təcavüzkarlarına qarşı mübarizə aparsalar da, silah-sursat sarıdan çox əziyyət çəkirdilər. Buna görə də müsəlman Milli Şurasının sədri Cəfərqulu xan kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. Şərq ordu komandanlığı, xüsusilə Kazım Qarabəkir Paşa 1919-cu ilin yayında müəyyən ordu qrupu ilə Naxçıvanın köməyinə gəldi. Yerli gənclərdən ibarət silahlı dəstələr yaradıldı, onlara hərbi təlimlər keçirildi. Kalbalı xanın süvari dəstəsi, hansı ki onların sayı 500 nəfərdən çox idi – erməni daşnaklarına layiqli cavab verirdi.

***– İsmayıl müəllim, istərdim ki, Araz-Türk Respublikasının erməni iddialarının dəf olunmasında və Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanmasında rolu barədə də oxucularımıza məlumat verəsiniz.***

– Vətənpərvər qüvvələr Naxçıvan bölgəsini erməni təcavüzündən qorumaq üçün 1918-ci il 18 noyabrda Araz-Türk Respublikasını yaratdılar. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, Sərdərabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Respublika 1 milyon nəfər əhaliyə, 8 min 696 kvadratkilometr əraziyə malik idi, paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası hökumətinin sədri Əmir bəy Nərimanbəyov, hərbi naziri İbrahim bəy Cahangiroğlu idi. Yeni hökumət Naxçıvanın daşnak hücumlarından qorunmasında mühüm rol oynadı. Qısa müddətdə Araz-Türk Respublikasının silahlı qüvvələri yaradıldı. Bu hərbi hissələr – könüllü xalq dəstələri 20 tabordan ibarət idi. Türkiyə dövlətinin Araz-Türk Respublikası hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra Naxçıvan bölgəsində saxlanılan 300-dən çox əsgər və zabit də bu istiqamətdə müəyyən işlər görmüşdülər.

Araz-Türk Respublikası 1919-cu il martın əvvəlinədək fəaliyyət göstərdi. Yeni hökumət erməni təcavüzünün qarşısını aldı. Araz-Türk Respublikası hökuməti Naxçıvanın ölkəmizin ayrılmaz hissəsi olduğunu bir daha elan edərək Azərbaycan Xalq Cümhuriyyətindən yardım istədi. Nəticədə, Naxçıvana müvəqqəti general-qubernator təyin olundu.

***– Naxçıvan əhalisinin 4 yanvar 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə ünvanladığı müraciətdə hansı tarixi faktlar öz əksini tapmışdır?***

– 1918-ci ilin sonu, 1919-cu ilin əvvəllərində İrəvan, Ordubad müsəlmanları, yanvarın 2-də isə İrəvan quberniyasının ictimai xadimləri yaranmış ağır vəziyyətlə bağlı Azərbaycan hökumətinə müraciət edərək tədbirlər görülməsini xahiş etmişlər.

Ordubad şəhərinin və ətraf ərazisinin müsəlmanlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, *"bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Elanlarda birləşmə məsələsi göstərilmişdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur-Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirməyi planlaşdırırlar. Erməni daşnakları, bu qəzaları müsəlmanlardan ona görə təmizləmək istəyirlər ki, xalqların gələcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər... Əgər ermənilər bu əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq..."*

Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. Onların 1919-cu il yanvarın 4-də Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə ünvanladıqları müraciətdə Naxçıvan, Şərur və Ordubad qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında geniş məlumat verilirdi. Müraciətdə deyilirdi: *"1917-ci ilin dekabr ayından başlayaraq 1918-ci ilin iyun ayına qədər erməni hərbi hissələri tərəfindən İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndi yandırılmış, əhalinin böyük əksəriyyəti öldürülmüş, bir hissəsi isə dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Müsəlmanların kütləvi şəkildə yaşadıqları İrəvan quberniyasının Sürməli, Eçmiədzin, Şərur qəzaları erməni qoşunları tərəfindən tutulmağa başladığı vaxt dinc müsəlman əhalisinin bir hissəsi öldürülür, bir hissəsi də öz yaşayış yerlərini tərk edərək dağlara çəkilib İran sərhədlərinə keçməyə məcbur olmuşdular ki, burada onları hər dəqiqə ölüm gözləyirdi..."*

Göndərilmiş bu müraciət Azərbaycan Nazirlər Şurasında və Parlamentində müzakirə edilmiş və Naxçıvana göstərilən köməklik artırılmışdı.

***– Və nəhayət, yerli əhalinin siyasi iradəsi və qətiyyəti, ağır və mütəşəkkil mübarizəsi nəticəsində Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi haqqında tarixi akt qəbul edildi...***

– Azərbaycan hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılmasında və əhalinin problemlərinin həllində mühüm rolu olan təşkilatlardan biri Həmyerlilər cəmiyyəti idi. Bu cəmiyyət öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu İrəvana, Gəncəyə, Ordubad və Naxçıvana göndərmişdi.

M.Mirbağırov və onunla birlikdə Naxçıvana gələn heyət yerli fəhlələrlə, ingilis general-qubernatoru və xalqın nümayəndələri ilə görüşdü. Fevralın 23-də keçirilən yığıncaqda naxçıvanlılar yekdilliklə mövcud yerli hökuməti tanıdıqlarını bəyan etdilər. M.Mirbağırov Azərbaycana könüllü birləşmək barədə rəsmi akt tərtib etməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə aid maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və əhalinin nümayəndələri tərəfindən imzalandı.

M.Mirbağırov Naxçıvanda olduğu müddətdə bölgədəki və ətraf yerlərdəki hərbi-siyasi vəziyyətlə tanış oldu, əhalinin və ictimai qüvvələrin mövqelərini öyrəndi. Səfərinin yekunu olaraq Azərbaycan hökumətinə əsaslı təkliflər verdi. Bu təkliflərin Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvan əlaqələrinin artmasında çox böyük əhəmiyyəti oldu. Azərbaycan hökuməti isə qəti surətdə bildirdi ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və bu ərazi ölkə milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır.

***– İsmayıl müəllim, AMEA Naxçıvan Bölməsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması ilə bağlı hansı tədbirlərin keçirilməsi nəzərdə tutulur?***

– Cümhuriyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması bölməmizin də üzərinə müəyyən vəzifələr qoyur. İlk növbədə, "Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə: tarixilik və ərazi bütövlüyünün qorunması" mövzusunda elmi konfrans keçiriləcəkdir. Bölmədə ümumtəhsil məktəbləri üçün "Azərbaycan Xalq Cümhuriyyəti – 100" mövzusunda interaktiv dərs təşkil ediləcək, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunacaqdır. Bunlarla yanaşı, "Azərbaycan Xalq Cümhuriyyəti: parlamenttipli respublika" adlı monoqrafiyanın da nəşri üzərində iş aparılır. Əməkdaşlarımız Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tematik verilişlərin, qəzet materiallarının hazırlanmasında da yaxından iştirak edirlər. Milli dövlətçilik tariximizdə mühüm rol oynayan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyəti geniş şəkildə öyrəniləcək və öyrədiləcəkdir.

***– Müsahibə üçün sağ olun.***

✍ **Ramiyyə ƏKBƏROVA**

# Kommunal təyinatlı yeni avtomobil və konteynerlər təqdim edilib

***Dünən muxtar respublikaya gətirilmiş 1 kommunal təyinatlı avtomobilin, 60 iritutumlu və 60 kiçiktutumlu konteynerlərin təqdimatı olub.***



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək deyib ki, son illər muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin həcmi xeyli genişləndirilib, yaşayış məntəqələri müasirliyə, gözəlliyə qovuşub. Bu gözəlliyin, abadlığın və səliqə-sahmanın qorunması qarşıda duran başlıca vəzifələrdəndir. Ona görə də muxtar respublikada kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür, yeni texnika və avtomobillər alınıb gətirilir.

Nazir kommunal xidmət müəssisələrinə yeni avtomobil və konteynerlərin təqdim olunmasını da bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi dəyərləndirib, bu sahədə çalışan kollektivlərə işlərində uğurlar arzulayıb.

Babək rayon Nehrəm kənd bələdiyyəsinin sədri Tofiq Abutalıbov göstərilən diqqətə, yaradılan şəraitə görə minnətdarlıq edib.

Qeyd edək ki, 10 iritutumlu konteyner Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinə, qalan 50 iritutumlu və 60 kiçiktutumlu konteynerlər isə digər rayonlara verilib. Əlavə olaraq 1 "Haller" markalı avtomobil Şərur Rayon Kommunal Müəssisələr Kombinatına təqdim olunub.

✍ **Nail ƏSGƏROV**

## İslam dininə məxsus qədim və zəngin süfrə mədəniyyəti

***Dinimizə məxsus zəngin mədəniyyətin bir hissəsini təşkil edən süfrə mədəniyyəti İslam ölkələrində mühüm yer tutur. İslam xalqlarının mətbəx mədəniyyətində ortaq dəyərlərin, müəyyən yeməklərin, qidaların bir-birinə yaxın olması da onu göstərir ki, bu süfrə mədəniyyəti hər bir müsəlman xalqının məişətinə daxil olmuşdur. Bu gün də bu qaydalara əməl edilməsi və adət halını alaraq yaşadılması bunun əsas göstəricisidir.***



İslam dininin özünəməxsus süfrə mədəniyyətindən danışarkən qeyd etmək lazımdır ki, yeməkdən əvvəl dinimizə aid olan bir sıra məsələləri bilməyin böyük əhəmiyyəti vardır. Dinimizdə bir sıra qidaların haram və qadağan olması sistemləşdirilmişdir. Bəzi quşların, dəniz heyvanlarının, hətta onların hansı əzalarının yeyilib-yeyilməməsi də aydın şərh edilmişdir. Məsələn, İslamda donuz ətini yemək, yaxud donuz ətindən yemək hazırlamaq qadağandır (haramdır). Tarixi İslamdan da əvvələ gedən bu qadağa dinimizdə də müəyyən amillərə əsaslanaraq davam etdirilir. İaşə sahəsində digər qadağalar haqqında müqəddəs kitabımız olan "Qurani Kərim"in müxtəlif surələrində bəhs olunur. Bununla bağlı çoxsaylı hədislər də vardır. Belə hədislərin birində oxuyuruq: "Allah qan, leş, donuz əti yeməyi, spirtli içkilər içməyi qadağan etmişdir". Təbii ki, bu cür hədislərin sayını artırmaq da olar.

İslama görə, qidalanma zamanı bir sıra qaydalar var ki, onlara əməl etmək vacibdir. Yeməkdən qabaq və yeməkdən sonra əllər mütləq yuyulmalı və dəsmalla qurulanmalıdır. Bu qaydalara indi də riayət olunur. Süfrə başında əyləşən qonaqlara əl yumaq üçün zərif qabda su və ləyən gətirilməsinə bu gün də rast gəlinir. Ev sahibi hamıdan əvvəl yeməyə başlamalı və hamıdan sonra yeməkdən çəkilməlidir. Bu, onunla bağlıdır ki, qonaqlar ona baxıb yeməklərini rahat şəkildə yesinlər.

Süfrələrimizdə bu gün də Allah-Taalanın verdiyi nemətlərə şükür edilərək yeməyə başlanılması, yeməyə başlarkən "Bismillah", qurtaranda isə "Əlhəmdülillah", – deyərək zikr edilməsi yemək zamanı da dini dəyərlərimizin yaşadılıb davam etdirilməsinin bariz nümunəsidir. İslamın bizə buyurduğu yemək qaydaları mövzusunda diqqət yetirilməli digər məqamlar da vardır ki, bunlar İslam süfrə mədəniyyətinin əsasını təşkil edir və böyük əhəmiyyətə malikdir. Nənə-babalarımızdan görüb-götürdüyümüz, artıq adət halını almış və süfrələrimizdə riayət edilən bu tövsiyələr İslamda süfrə mədəniyyətinin əsası olmaqla yanaşı, həm də süfrədə əyləşən şəxsin əsalətinin göstəricisinə çevrilib.

Qida qəbulu barəsində İslamın bir sıra etik normaları ümumbəşəri normalardır. Belə ki, gün ərzində iki dəfə, yəni günün əvvəli və axşamçağı yemək yeyilməli, çörək süfrəyə gətirildikdən sonra nəyi isə gözləməməli və yeməyə başlarkən ilk tikə duzla açılmalı, son tikə duzla bitirilməlidir. İslam qaydasına görə, çörək süfrəyə verilən kimi ondan yemək vacibdir. Bu çörəyə bütün nemətlərdən daha çox ehtiram edilməsinin ifadəsidir. Ona İslam dünyasında həmişə müqəddəs nemət kimi baxılıb. And yerimiz sayılan çörək daim uca tutulub. Yerə düşən bu nemətin götürülüb insan ayağı dəyməyən yerə qoyulması xalqımızın müqəddəsləşmiş və yaşadılan adətlərindəndir. İslam adətlərinə görə, yemək zamanı tikə yaxşıca çeynəndikdən sonra udulmalı, sonra ikinci tikəyə əl uzadılmalı, yemək yeyərkən heç kimlə danışılmamalı, süfrə ətrafındakılara baxılmamalı, yeməkdən israf edilməməli, yeməyi sonacan bitirməyə çalışmalı, hər kəsin yeyib qurtarmasını gözləməli və süfrədən hamıdan əvvəl qalxmamalı, küçədə və ayaq üstə yemək yeməməli, süfrə başında əyləşərkən əvvəlcə yaşca və mövqecə böyük olan şəxsin yeməyə başlamasını gözləməlidir. Yeməkdən sonra süfrə təmiz yığışdırılmalı, qida qalıqları natəmiz yerə atılmamalıdır. Bu qalıqların quşlara və heyvanlara verilməsi daha məqbul hesab edilir.

İslamda süfrə mədəniyyəti ilə bağlı qeyd etdiyimiz bir sıra məsələlərlə yanaşı, insanın sağlamlığı ilə bağlı şərtlər də nəzərə alınmışdır. Bu etikadan kənar məsələlər məkruh sayılır (pislənilir). Məsələn, qaynar-qaynar və tələsərək yemək yeyilməsi, duru yeməyi və çayı üfürmək. Yağlı yeməklərdən sonra su içmək, suyu səsli formada içmək və sair İslam qidalanma mədəniyyətində doğru sayılmır.

Bütün bu sadalananlar İslam süfrə mədəniyyəti haqqında kiçik qeydlərdir. Təbii ki, bu mövzu ilə bağlı elə məsələlər vardır ki, onları daha geniş prizmadan yanaşaraq izah etmək olar. Bunun üçün hər birimiz araşdırmalı və maariflənməliyik ki, İslam süfrə mədəniyyətindən danışarkən lazım gələrsə, bu qadağaların (haramın) səbəblərini digərlərinə də izah edə biləək.

Qeyd etmək yerinə düşər ki, qədim diyarımız islami dəyərlərə söykənən süfrə mədəniyyəti ilə zəngindir. Ailənin birlikdə süfrə başına yığışması, böyüyün yuxarı başda əyləşməsi, hər kəsin öz yerini bilməsi həm tərbiyənin göstəricisi, həm də bir səmimiyyətin, doğmalıq hissinin təzahürüdür.

Yeməklər, nemətlər öz görünüşü, ləzzəti ilə süfrələrimizə gözəllik bəxş edir. Lakin hər şeydən daha yaxşısı bu gözəllikdən layiqincə və qədərincə istifadə etmək və sadalananlara riayət etməkdir. Çünki süfrə mədəniyyətinə əməl etmək süfrələrdəki nemətlər qədər gözəldir. Mövlana deyir: "Ulu Tanrı gözəldir və gözəlliyi əmr edir". Ulu Tanrının buyurduğu gözəlliyə süfrələrimizdə də əməl edək.

**Türkay SƏFƏRZADƏ**
***"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru***

## Növbəti iməciliklər mütəşəkkilliyi ilə yadda qalıb



***Ağac əkmək, ətraf mühitin yaşıl örtüyünü zənginləşdirmək, sağlam ekoloji mühit yaratmaq daim insanları düşündürən, onların diqqətini çəkən məsələlərdən biri olub. Bu məqsədlə martın 31-də muxtar respublikanın şəhər və rayonlarında keçirilən iməciliklər mütəşəkkilliyi ilə yadda qalıb.***

Təşkilatçı qurumların əməkdaşlarının, ali və orta ixtisas məktəblərinin tələbələri, internet resursları və sosial şəbəkələr vasitəsilə könüllülük prinsipi əsasında qeydiyyatdan keçmiş gənclərin iştirakı ilə Naxçıvan şəhəri ətrafında, 1 hektarlıq ərazidə 31 mart 1918-ci il tarixdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı qurbanlarının xatirəsinə bağ salınıb. Bu məqsədlə görülən işlər çərçivəsində, bağın ərazisində 750-dək ting əkilərək suvarılıb. Bağın salınmasında 150-dək gənc iştirak edib. Bağ bundan sonra da davamlı olaraq diqqətdə saxlanılacaq və əkilmiş ağaclara müntəzəm qaydada aqrotexniki qulluq göstəriləcəkdir.

Naxçıvan şəhərinin sakinləri Dövlət Yol Polisi İdarəsinin yaxınlığındakı 3 hektar ərazidə 2200 meyvə tingi əkiblər.

Şərur rayonunda keçirilən iməciliklərdə də əhalinin mütəşəkkilliyi müşahidə edilib. Belə ki, ötən iməciliklərdə salınan "Gənclər bağı"na 80, Danyeri kəndindəki 3 hektarlıq bağa isə 1350 ədəd meyvə tingi, rayonun park və xiyabanlarına 2000 ədəd mövsümi gül kolu salınıb.

Babək rayonunun sakinləri isə Naxçıvan-Şahbuz-Batabat magistral yolunun Vayxır kəndindən keçən hissəsində 500 meyvə tingi, Babək qəsəbə-Nehrəm kənd avtomobil yolunun kənarlarında 200 ədəd meşə ağacı əkiblər.

Ordubadda keçirilən iməciliklərdə sakinlər rayonun "Əylis düzü" adlanan hissəsində 1,7 hektarlıq ərazidə 500 üzüm tingi, qızılgül bağında 1900 gül kolu əkiblər. "Gənclər bağı"nda ərazi daşlardan təmizlənib, əlavə olaraq 20 həmişəyaşıl ağac salınıb. Rayonun kəndlərində isə ümumilikdə, 800 meyvə ağacı əkilib.

Culfa rayonunda da iməcilik iştirakçıları fəallıq nümayiş etdiriblər. Rayon sakinləri "Culfa düzü" adlanan ərazidəki 1 hektarlıq sahədə 1500 üzüm tingi, Culfa şəhərində isə 300 meyvə tingi, 200 meşə ağacı, yol kənarlarına 100 ədəd gül kolu əkib, yaşıllıqlarda ağaclara aqrotexniki qulluq işləri aparıblar.

Kəngərli rayonunun sakinləri tərəfindən Xok kəndindəki 1 hektarlıq ərazidə 500 meyvə tingi əkilib.

Şahbuzlular Ayrınc kəndindəki 0,2 hektar ərazidə yeni salınmış bağda 230, "İşgəsu" adlanan ərazidəki 0,2 hektarlıq ərazidə 72 meyvə ağacı əkib, rayonun kəndlərindəki yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Sədərək rayonunda da iməciliklər mütəşəkkilliklə davam edib, Naxçıvan-Sədərək magistral yolunun sol hissəsindəki 0,5 hektarlıq ərazidə 1200 üzüm tingi, "Gənclər bağı"nda, Sədərək kənd 1 nömrəli məktəbin həyətində və magistral yolun kənarında 850 meyvə ağacı əkilib.

Ümumilikdə, martın 31-də muxtar respublikada keçirilən iməciliklərdə 22 min 557 nəfər iştirak edib, 14 min 502 ədəd ağac və bəzək kolları əkilib.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ənənəvi olaraq ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri də aparılıb.

## Ümumdünya Autizm Haqqında Məlumatlandırma Günü münasibətilə tədbir

*2 aprel – Ümumdünya Autizm Haqqında Məlumatlandırma Günü münasibətilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində autizm sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüş keçirilib.*

Görüşdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru Ramin Səfərov, Psixoloji dəstək xidmətinin müəllim-psixoloqu Minurə Əliyeva və Defektoloji bölmənin müəllim-defektoloqu Bəyim Qasımova valideynlərə bu kateqoriyadan olan uşaqlarla yaş qruplarına uyğun olaraq təlim-tərbiyənin təşkili, evdə davranış və ünsiyyətqurma bacarığının inkişaf etdirilməsi barədə danışıblar.

Qeyd olunub ki, hazırda muxtar respublikada autizm sindromlu 29 şəxs qeydiyyatdadır. Sağlamlıq imkanları məhdud şəxslərə, o cümlədən autizm sindromundan əziyyət çəkən insanlara göstərilən sosial xidmətlərin əhatə dairəsi ilbəil genişlənir, bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Karateçilərimizdən üç qızıl medal



***Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində karate idman növü üzrə "Sambo-70" adlı açıq çempionat keçirilib. Çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançısı Rəşid Süleymanov da iştirak edib.***

Yarışı yüksək səviyyədə keçirən təmsilçimiz 10-11 yaşlı idmançılar arasında mübarizə aparıb. 40 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan idmançımız keçirdiyi bütün görüşlərdə qalib gələrək çempionatın qızıl medalını qazanıb.

Muxtar respublikanın Karate-do Federasiyasının digər yetirmələri Bakı şəhərində yerləşən Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən Şitoryu Karate-do Federasiyasının XIV respublika çempionatında da uğurla çıxış ediblər. Birincilikdə iki idmançımız – Sərcan Məmmədov və Aslan İsmayılov da mübarizə aparıblar. Belə ki, 55 kiloqram çəki dərəcəsində Sərcan Məmmədov (16-17 yaşlılar) və 70 kiloqram çəki dərəcəsində Aslan İsmayılov (14-15 yaşlılar) bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adını qazanıblar.

Sonda hər iki turnirin qalibi olan idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Rezidenturaya qəbul imtahanının birinci mərhələsi və ali məktəblərə hazırlaşan abituriyentlər üçün cari ilin ilk sınaq imtahanı keçirilib

Dövlət İmtahan Mərkəzi aprelin 1-də rezidenturaya qəbul imtahanının birinci mərhələsini keçirib. İmtahan Bakı şəhərində 3, Naxçıvan şəhərində isə 1 binada baş tutub. Bütün binalarda eyni vaxtda – saat 11[00]-da başlayıb 2 saat 30 dəqiqə davam edən imtahanın idarə olunmasına 11 imtahan rəhbəri və 98 nəzarətçi-müəllim cəlb olunub.

Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin təşkilatçılığı ilə Naxçıvan şəhərində imtahan Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin binasında keçirilib. 53 namizədin iştirak etdiyi imtahana 1 imtahan rəhbəri, 6 nəzarətçi-müəllim cəlb edilib ki, nəzarətçilər Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin bazasındandır.

Həmin gün, eyni zamanda ali məktəblərə hazırlaşan abituriyentlər üçün cari ilin ilk sınaq imtahanı da keçirilib. İmtahan Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə baş tutub. Saat 11[00]-da başlayan sınaq imtahanında abituriyentlərə 5 fəndən 125 sual təqdim olunub. Sualların cavablandırılması üçün onlara 3 saat vaxt verilib.

695 abituriyentin iştirak etdiyi imtahana 5 imtahan rəhbəri, 33 nəzarətçi-müəllim cəlb edilib ki, nəzarətçilərin hamısı və 4 imtahan rəhbəri Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin bazasındandır.

Qeyd edək ki, ali məktəblərə hazırlaşan abituriyentlər üçün növbəti sınaq imtahanı aprelin 15-də keçiriləcək. İmtahana qeydiyyat aprel ayının 10-da başa çatacaq.

Hər iki imtahanın nəticələri imtahandan bir neçə gün sonra Dövlət İmtahan Mərkəzinin saytında *(www.dim.gov.az)* yerləşdiriləcək.

**Fatma BABAYEVA**


### Bildiriş

"Gəmiqaya İstilik-Soyutma Sistemləri" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200577081) fəaliyyəti dayandırıldığından ləğv edilmişdir.

### İtmişdir

Naxçıvan şəhəri, N.Tusi küçəsi 18 ünvanında yerləşən fərdi yaşayış evinə aid 15843 inventar nömrəli texniki pasport və MH-0033669 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 254